# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/27** **10 sentyabr 2020-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorların apardıqları auditlərin operativ monitorinqinin həyata keçirilməsi məqsədilə Püşkatma komissiyasının yaradılması barədə**

Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkəmizdə uğurla reallaşdırılan islahatların mühüm bir istiqaməti kimi şəffaflığın artırılması, kölgə iqtisadiyyatına qarşı mübarizə və sahibkarlığın inkişafı sahəsində reallaşdırılan siyasətə yaxından dəstəyin göstərilməsi zərurətini nəzərə alaraq, Azərbaycan Respublikasının Auditorlar Palatasında auditor xidməti bazarında şəffaflığın artırılması, haqsız rəqabətin və dempinq hallarının aradan qaldırılması, keyfiyyətsiz auditor xidmətinin göstərilməməsi, auditə ictimai etimadın gücləndirilməsi istiqamətində və həmin neqativ hallara qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Palatanın üzvləri olan auditor təşkilatları və sərbəst auditorların apardıqları auditlərin operativ monitorinqinin həyata keçirilməsi üçün Palatanın Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin (V.Kərimov) təklifini əsas götürərək Palata üzvlərinin monitorinqi aparan şəxslər arasında obyektiv bölgüsünün təmin edilməsi məqsədilə aşağıdakı tərkibdə Püşkatma komissiyası yaradılsın:

**Komissiyanın sədri:**

Səbuhi Gülməmmədov – Auditorlar Palatasının icraçı direktoru

**Komissiyanın üzvləri:**

Altay Cəfərov – Auditorlar Palatası Şurasının üzvü, sərbəst auditor;

Elnur İbrahimov – Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin sədr müavini, sərbəst auditor;

Nazim Axundov – Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin üzvü, sərbəst auditor;

Nəcəf Talıbov – Auditorlar Palatası sədrinin müşaviri, “TNM Audit” MMC-nin direktoru;

Nigar İsmayılova – Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Auditin təşkili və monitorinq şöbəsinin müdir müavini;

Rövşən Cəfərli – Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Auditin təşkili və monitorinq şöbəsinin müdir müavini;

Vasif Cavadov – Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi, Auditorlar Palatası Şurasının üzvü;

Vəli Kərimov – Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin sədri, sərbəst auditor.

2. Komissiyaya tapşırılsın ki, Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorların apardıqları auditlərin operativ monitorinqinin həyata keçirilməsi məqsədilə 2020-ci il 11 sentyabr tarixində püşkatma keçirsinlər.

3. Komissiyaya tapşırılsın ki, püşkatamanın nəticələri protokollaşdırılsın və bu barədə məlumatın Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**